# Aşıq Ələsgər yaradıcılığı - mədəni irsimizin mühüm tərkib hissəsi

*Müşfiqə BAYRAMLI*

## Ozan-aşıq ənənələrinin zənginləşməsində mühüm xidmətləri olan Aşıq Ələsgərin yubileyi çoxəsrlik keçmişə malik aşıq sənətinin bayramıdır

Azərbaycan xalqı özünün zəngin tarixi, maddi-mədəniyyət abidələri, ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Eyni zamanda, həyata keçirilən uğurlu dövlət siyasəti mədəni irsimizin qorunmasını, dünyada geniş təbliğini təmin edir. Prezident İlham Əliyevin müvafiq Sərəncamı əsasında Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, böyük saz və söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyinin qeyd olunması da bu baxımdan xüsusi qeyd edilməlidir. Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm işlər görülməkdədir. Bundan başqa, İlham Əliyev noyabrın 30-da "Aşıq Ələsgərin abidəsinin ucaldılması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Bakı şəhərində ustad sənətkarın abidəsi ucaldılacaq.

Ekspertlərin fikrincə, Aşıq Ələsgərin 200 illik yubileyi ilə bağlı çoxşaxəli tədbirlərin keçirilməsi Azərbaycanda tarixi şəxsiyyətlərə, söz və sənət adamlarının əməyinə verilən yüksək dəyərin göstəricisidir. Görülən işləri tarixi şəxsiyyətlərin irsinə və milli yaradıcılığa göstərilən yüksək dövlət qayğısı kimi dəyərləndirən Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı bildirib ki, Azərbaycan aşıq sənətinin ən görkəmli simalarından biri olan Aşıq Ələsgər irsinə dövlətimiz tərəfindən həmişə yüksək dəyər verilib: "Ozan-aşıq ənənələrinin zənginləşməsində mühüm xidmətləri olan Aşıq Ələsgərin yubileyi çoxəsrlik keçmişə malik aşıq sənətinin bayramıdır. Aşıq Ələsgər irsinə dövlətimiz tərəfindən həmişə yüksək dəyər verilib. 1972-ci ildə Aşıq Ələsgərin 150 illiyi ilə bağlı Ulu Öndər Heydər Əliyevin göstərişi əsasında həm Bakıda, həm də Moskvada - Kreml Sarayında tədbir keçirildi. Heydər Əliyevin göstərişi ilə Göyçə mahalında, Dədə Ələsgərin yurdunda onun büstü ucaldıldı. Bundan sonrakı dönəmlərdə Aşıq Ələsgərin 170, 175, 180, 185, 190 illik yubileyləri də ardıcıl şəkildə dövlət səviyyəsində qeyd olundu. Bu il Prezident İlham Əliyevin imzaladığı "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı da Ulu Öndərin Aşıq Ələsgər yaradıcılığına həssas münasibətinin davamı kimi dəyərləndirmək olar".




### USTAD AŞIĞIN YARADICILIĞI ƏDƏBİYYAT NÜMUNƏLƏRİ İLƏ ZƏNGİNDİR

Professor Məhərrəm Qasımlı bildirib ki, Aşıq Ələsgər yaradıcılığına həm folklor, həm də ədəbiyyat hadisəsi kimi baxmaq olar: "Ustad aşığın yaradıcılığı birbaşa ədəbiyyat nümunələri ilə zəngindir. Onun şeirlərini təhlil etdikdə də bunu görmək olar. Xalqın əxlaq kodeksi, etnoqrafiyasından gələn milli-mənəvi keyfiyyətlər sənətkarın yaradıcılığında öz əksini tapıb. "Aşıq Ələsgərlə bağlı Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalında indiyə qədər çoxsaylı verilişlər yayımlanıb. Bu verilişlərdə ustad aşığın dastan və rəvayətləri təqdim olunub, musiqiləri səsləndirilib. Həmin dastan və rəvayətlərin bir qismini biz albomda yerləşdirmişik. Yubiley ili ilə bağlı klassik irsimizin gənclərə mənimsədilməsi məqsədilə "Aşıq Ələsgər və gənclik" mövzusuna həsr olunan işlər də görürük. Aşıq Ələsgər irsinin beynəlxalq səviyyədə təbliği ilə bağlı da işlərimiz olacaq. Biz istəyirik ki, Ələsgər irsi daha geniş coğrafiyada, Şərq ölkələrində, Avropada, Amerikada, tanıdılsın. Bu istiqamətdə artıq işlərə başlamışıq",- deyə M.Qasımlı vurğulayıb.

### XALQDAN ÖYRƏNƏN VƏ XALQA ÖYRƏDƏN AŞIQ

"Aşıq Ələsgər Azərbaycan aşıqlığının sənət pasportudur",-deyən professor bildirib ki, həm tələbələrə, həm də bu sənətə yönələn gənc aşıqlara Aşıq Ələsgəri bir sənət pasportu kimi sinələrində daşımağı vacib bilir. "Xalqımıza öz sazı və sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət edən Dədə Ələsgər yalnız qüdrətli bir şair-aşıq kimi yox, həm də tanıyanların qəlbində bir ocaq, övliya kimi heykəlləşmişdi. Xalqdan öyrənən və xalqa öyrədən Aşıq Ələsgər "Olmaz" şeirində deyir:

*Bu dünyada mən təcrübə elədim,*
*Nakəs körpüsündə heç bünyad olmaz.*
*Bir mərd ilə acı yesən, şirindi,*
*Yüz namərdlə şəkər yesən, dad olmaz".*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti üzrə hazırlanmışdır**

Yeni Azərbaycan.- 2021.- 7 dekabr.- S.7.